RAST MÜZİKOLOJİ DERGİSİ
Uluslararası Müzikoloji Dergisi
www.rastmd.com

Doi:10.12975/rastmd.2016.04.02.00077



# AZƏRBAYCAN MUĞAMI VƏ ÖZBƏK ŞAŞMAKOMUNUN MÜQAYİSƏLİ TƏDQİQİ MƏSƏLƏLƏRİ

Gülnar Verdiyeva[1]

## ÖZET

Hər bir xalqda şifahi ənənəli professional musiqi sənəti qorunaraq, gələcək nəsillərə ötürülür. Azərbaycan muğamı, Özbək-tacik şaşmakomu ümumi bir kökdən qidalanaraq, ümumilikdə Şərq musiqisinin bünövrəsini təşkil edir. Eyni zamanda, bunların hər birinin özünəməxsus inkişaf tarixi, ifaçılıq üslub xüsusiyyətləri vardır. Hər bir xalqda şifahi ənənəli professional musiqi sənəti qorunaraq, gələcək nəsillərə ötürülür. Elmi tədqiqatlarda muğam, məqam, makam mədəni-tarixi kontekstdə şərh olunur, hər bir halda makam sisteminə əsaslanır, melodik və ritmik xüsusiyyətləri ilə, ifaçılıq tərzi ilə diqqəti cəlb edir. Muğamların oxunması bir yaradıcılıq prosesi olub, ifaçının – yaradıcının ədəbi, fəlsəfi, estetik yanaşma tərzini özündə cəmləşdirir. Şərqdə inkişaf etmiş digər şifahi ənənəli musiqi janrların əsasını ciddi modal struktur, məqam/makam sistemi təşkil edir. Ayrı-ayrı regionlarda müxtəlif cür adlandırılsa da (muğam, məqam, makam, mukam), mahiyyətcə, eyni mənanı kəsb edir və iri həcmli silsilə şəkilli vokal-instrumental musiqi əsəri kimi yozulur.

**Anahtar Kelimeler:** muğam, şaşmakom, şifahi ənənələr, modal struktur, silsiləvi forma.

# ПРОБЛЕМЫ СРАВНИТЕЛЬНОГО ИЗУЧЕНИЯ АЗЕРБАЙДЖАНСКИХ МУГАМОВ И УЗБЕКСКИХ ШАШМАКОМОВ

Гюльнар Вердиева

## РЕЗЮМЕ

В культуре восточных народов профессиональная музыка устной традиции занимает достойное место и передается из поколения к поколению. Азербайджанский мугам, Узбекский шашмаком питаясь от общих корней, в целом составляют основу восточной музыки. В то же время, у каждого народа эти виды искусства имеют свою историю развития, исполнительские особенности и т.д. В научных трудах понятия мугам, магам, макам, маком, мукам трактуются в культурно-историческом плане, но базируются

[1] Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

на общих правилах, охватывающие структурные, исполнительские особенности, которые являются творческим процессом, и охватывающие литературные, философские, естетические взгляды мастера - творца. Жанры профессиональной музыки устной традиции развивающиеся в восточной музыке, основаны на строгой модальной структуре, системе макам/мугам. В разных регионах названия жанров отличаются, но по сути означают вокально-инструментальные произведения крупной циклической формы.
**Ключевые слова:** мугам, шашмаком, устные традиции, модальные структуры, циклические формы.

# THE PROBLEMS OF COMPARATIVE STUDY OF AZERBAIJANI MUGHAM AND UZBEK SHASHMAKOM

**Gulnar Verdiyeva**

**ABSTRACT**

In the culture of the Eastern nations the professional music of oral tradition has its place, and passed down from generation to generation. Azerbaijani mugham, Uzbek Shashmakom feeding from the common roots, generally form the basis of oriental music. At the same time, each nation have their own history of development, performance characteristics, etc. of, these art forms. The concept of scientific studies mugham, makam, maqam, makom, mukam interpreted in cultural and historical terms, but based on common rules, covering the structure, performance characteristics, which are the creative process and covers literary, philosophical, esthetic views of the master - the creator. Genres of professional music of oral tradition developing in Eastern music, based on a strict modal structure, makam / mugham system. In different regions the genre names are different, but essentially it means the vocal and instrumental works of large cyclic form.
**Keywords:** mugham, shashmakom, oral tradition, modal structure, cyclic form

## GİRİŞ

Azərbaycan və özbək xalqlarının şifahi ənənəli professional musiqisində muğamlar və makomlar əsas yer tutur və aparıcı janr əhəmiyyəti daşıyır, eyni zamanda, bəstəkar yaradıcılığının əsasını təşkil edir. Bu xalqların musiqi ənənəsində makom-muğam sahəsi bir sıra oxşar və fərqli cəhətləri ilə diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, Şərqdə inkişaf etmiş digər şifahi ənənəli musiqi sənət növləri kimi, şaşmakom və muğam ciddi sistemə, məntiqi struktura malik möhtəşəm sənət əsərləridir. Bunların da əsasını məqam/makam sistemi təşkil edir. Əlbəttə ki, ayrı-ayrı regionlarda müxtəlif cür adlandırılsa da (muğam, məqam, makam, mukam), mahiyyətcə, bu eyni mənanı kəsb edir. Elmi tədqiqatlarda bu sözün müxtəlif deyiliş tərzi ilə, mədəni-tarixi kontekstdə şərhi ilə qarşılaşsaq da, hər bir halda məqam – musiqi sisteminin, eləcə də silsilə quruluşlu əsərin əsasını təşkil edən bir məfhum kimi yozulur. Muğam və şaşmakom vokal və instrumental musiqinin qovuşmasında yaranaraq, melodik və ritmik xüsusiyyətləri ilə, ifaçılıq tərzi ilə diqqəti cəlb edir. Əlbəttə ki, muğamların - makomların oxunması bir yaradıcılıq prosesi olub, ədəbi, fəlsəfi, estetik yanaşma tərzini özündə cəmləşdirir.

Şərq xalqlarının muğam – makom sənətinin formalaşması və inkişafı Orta əsrlər dövrünə, Şərq mədəniyyətinin intibah dövrü hesab olunan X-XII və sonrakı əsrlərə aid edilir. Bununla bağlı dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Azərbaycan xalq musiqisinin

əsasları" elmi-fundamental əsərindən geniş yayılmış bir fikrini misal göstərmək istərdik: "Yaxın Şərq xalqlarının musiqi mədəniyyəti XIV əsrə doğru özünün yüksək səviyyəsinə çatmış və on iki sütunlu, altı bürclü "bina" (dəstgah) şəklində iftixarla ucalmış və onun zirvəsindən dünyanın bütün dörd tərəfi: Əndəlisdən Çinə və Orta Afrikadan Qafqaza qədər geniş bir mənzərə görünmüşdür. Bu "musiqi mədəniyyəti sarayının" tikilişində qədim yunan musiqi nəzəriyyəsini yaxşı bilən və hərtərəfli bilik sahibi olan Əbu Nəsr Farabi, Avropada Avitsenna adı ilə məşhur olan alim-mütəfəkkir Əbu Əli Sina, Əlkindi və başqaları iştirak etmişlər" (1, 10).

Ü.Hacıbəylinin qeyd etdiyi "musiqi binası"nın təməlini təşkil edən 12 sütun - 12 əsas muğamı: Üşşaq, Nəva, Busəlik, Rast, Əraq, İsfahan, Zirəfkənd, Büzürk, Zəngulə, Rəhavi, Hüseyni və Hicaz; 6 bürc - 6 avazatı: Şahnaz, Mayə, Səlmək, Novruz, Gərdaniyyə, Güvaşt - təmsil edirdi.

Qeyd etmək lazımdır ki, bu muğamlar (makamlar) bir sıra xalqların - ərəb, türk və b. musiqisinin əsasını təşkil edirdi, o cümlədən, azərbaycan, özbək və tacik xalqlarının şifahi ənənəli professional musiqi irsinə məxsus idi.

Bu əsərində Ü.Hacıbəyli Şərq xalqlarının mədəniyyətində muğamın əhəmiyyətli yerini göstərərək, onun inkişaf yollarını da qeyd etmişdir. O yazır: "XIV əsrin axırlarına doğru baş verən ictimai, iqtisadi və siyasi dəyişikliklərlə əlaqədar olaraq, bu möhtəşəm musiqi "binasının" divarları əvvəllər çatlamış və sonralar isə büsbütün uçub dağılmışdır. Yaxın Şərq xalqları uçub dağılmış bu "musiqi binasının" qiymətli "parçalarından" istifadə edərək, özlərinin "lad tikinti" ləvazimatı ilə hər xalq ayrılıqda özünəməxsus səciyyəvi üslubda yeni "musiqi barigahı" tikmişdir. Təbiidir ki, 12 klassik muğamın adları və həmçinin bu muğamların özləri də böyük dəyişikliklərə uğramışdır: əvvəllər müstəqil hesab olunan muğamlar bəzi xalqlarda şöbə halına keçir və yaxud əksinə, əvvəllər şöbə hesab olunan musiqi sonralar müstəqil muğama çevrilir. Yenə də bu qayda ilə, muğam və onun şöbələrinin eyni adları ayrı-ayrı xalqlarda müxtəlif məna ifadə edirdi" (1, 10).

Gətirdiyimiz sitatdan göründüyü kimi, həqiqətən də muğam sənəti bir çox Şərq xalqlarının musiqi mədəniyyətində şifahi ənənəli professional musiqi növü kimi intişar tapmışdır.

Orta əsrlərdə Şərq musiqisinin inkişafında bir sıra böyük ensiklopedist-alimlərin mühüm rolu olmuşdur ki, bunlardan Əl-Kindi, Fərabi, Səfiəddin Urməvi, Əbdülqadir Marağayi və başqalarının adları qızıl hərflərlə dünya mədəniyyəti tarixinə yazılmışdır. Onların yaratdıqları musiqi risalələri muğam-makom sənətinin tarixi-nəzəri məsələlərini öyrənmək üçün qiymətli mənbələrdir.

Tədqiqatçı Aleksandr Cumayev orta əsr əlyazmalarını öyrənərək makam haqqında təlimin formalaşması və inkişafında üç mərhələni üzə çıxarmışdır (2, s.164):

1. 12 makam sisteminin formalaşmasına qədər (XIII əsrə qədərki dövr).
2. 12 makam sisteminin formalaşması və inkişafı (XIII – XV əsrlər).
3. Regional sistem və silsilələrin təşəkkülü və lokallaşması (XVI – XIX əsrlər).

Makamat sistemi ərəb istilaları nəticəsində xilafətin yaranması ilə şərtlənmiş ictimai-tarixi dəyişikliklərlə bağlı olaraq geniş yayılmış və inkişaf etmişdir. Özünəməxsus regional sistemlərin gələcək inteqrasiyası isə genetik olaraq XIII – XV əsrlərdə formalaşmış ümumərəb makamat sistemi ilə bağlı olmuşdur.

A.Cumayev orta əsr yazılı mənbələrini təhlil edərək, musiqişünas alimlərin bu məsələ ilə bağlı fikirlərinin üst-üstə düşdüyünü aşkara çıxarmışdır. O yazır: "... musiqişünas alimlər tərəfindən özünəməxsus etnopsixoloji cəhətlərə malik müxtəlif xalqların və tayfaların, müxtəlif

obrazlı-emosional xarakteristikalı məqamları arasında əlaqələrin yaradılması o dövr üçün kifayət qədər dərindən əsaslandırılmışdı. Bu fakt türk elementlərinin (hər şeydən əvvəl Orta Asiya, özbək, azərbaycan, uyğur) makamata təsir dairəsini konkretləşdirmək məsələsini irəli sürməyə imkan verir. Bu, həm emosional xarakteristikaların sabitliyini, həm də estetik təsəvvürlərin kanonlaşdırılmasını təmin edir" (2, s.166-167).

Qeyd etmək vacibdir ki, Orta əsrlərdə musiqi nəzəriyyəsinin inkişafı, estetik baxışların formalaşması kimi ümumqəbulolunmuş kanonik əsasların şərhi şəklində özünü göstərirdi. Erkən orta əsrlərin böyük mütəfəkkirləri Əl-Fərabi, İbn-Sina qədim yunan alimlərinin davamçıları idilər. Sonra gələn nəzəriyyəçi alimlər – Əş-Şirazi, Səfiəddin Urməvi, Əbdürrəhman Cami Şərq musiqi elminin yaradıcılarının fikirlərinə istinad edərək, öz sələflərinin müddəalarına yeni əhəmiyyətli cəhətlər əlavə edirdilər. Orta əsrlər Şərq mütəfəkkirlərinin əsərlərində belə hesab olunurdu ki, "Üşşaq, Busəlik, Navo ladları igidlik, qorxmazlıq hissi aşılayır; Rost, Novruz, İrok, İsfaxon insanda işıqlı xəyalpərvər əhval-ruhiyyə yaradır; Buzurk, Raxovi, Kuçək, Zəngulə - qəm, kədər, Hüseyni və Hicoz – sevinc və heyranlıq hissi əmələ gətirir" (3, s.403).

Musiqişünas alimlər öz traktatlarında müəyyən muğamın ifasına dair bu və ya digər xalqın, tayfanın, ərazinin etnopsixoloji xüsusiyyətlərinə uyğun olaraq seçilməsi ilə bağlı tövsiyələr vermişlər. Alimlərin əksəriyyətinin (Urməvi, Marağai, Şirazi, Cami, Kavkabi, Amuli) fikrincə, cəsarət və qüvvət aşılayan Üşşaq, Nəva və Busəlik məqamları türklərin təbiətinə çox xasdır.

Orta əsr alimlərinin traktatlarında estetika məsələləri (o cümlədən, musiqinin yaranması, onun təsir gücü və s.), musiqinin elmi nəzəriyyəsi (lad-intonasiya sferasının nəzəri əsasları, ritmika haqqında təlim), təcrübi nəzəriyyə məsələləri (kompozisiya haqqında təlim, vokal və instrumental ifaçılığın normaları, musiqi alətlərinin təsnifatı) öz əksini tapmışdır.

Bəstəkar Adnan Sayqun Yaxın və Orta Şərq xalqlarının musiqisi haqqında belə demişdir: "...professional musiqidən danışırıqsa, bu regionda məskunlaşan müxtəlif xalqların professional musiqisini bir-birinə bağlayan qohumluq münasibətlərini inkar edə bilmərik. Mən "qohunluq münasibətləri" deyirəm, belə ki, əgər söhbət bu xalqların ənənəvi musiqisində yerli bədii ənənələrə uyğun olaraq az və ya çox dərəcədə şəklini dəyişmiş vahid musiqi sistemindən gedirsə, o zaman bədii yaradıcılığın intuitiv və daxili elementləri ilə bağlı bütün cəhətlər fərqli keyfiyyətlər kəsb edir" (4, s.326).

Şərq xalqlarının musiqi mədəniyyəti kontekstində, Azərbaycanda muğam – şifahi ənənəli professional musiqinin aparıcı janrıdır. Muğam janrının tam formalaşmasının Orta əsrlərə aid edilməsinə baxmayaraq, belə düşünmək olar ki, onun tərkibinə daxil olan müxtəlif şöbə və guşələrin, təsnif və rənglərin yaranma tarixi daha qədimdir.

Musiqişünas-alim Ramiz Zöhrabov "Muğam" əsərində yazır: "Muğam dəstgahlarının, zərbi-muğamların, kiçik həcmli muğamların, habelə təsnif və rənglərin təşəkkülündə, formalaşmasında və inkişafında xanəndə və sazanda kimisənətkarların böyük rolu var. Ələlxüsus, Azərbaycan şifahi professional musiqisinin ən mürəkkəb və monumental janrı olan dəstgahın ifasını onlar ənənəvi qanun-qayda çərçivəsində - əvvəl musiqi cümləsi və avazların, sonra isə guşə və şöbələrin müəyyən ardıcıllığı əsasında icra edirlər. Belə təqdirdə dəstgahın melodiyaları və ritmləri müəyyən qədər dəyişilir, transformasiyaya uğrayır, müxtəlif variantlığa düçar olur, lakin o, öz məqam-intonasiya əsasını sona qədər qoruyub saxlayır. Şübhəsiz ki, bu cür qayda-qanunlar çərçivəsində əsl ifaçı-ustadın fantaziyası üçün geniş imkan yaranır (5, 17).

Azərbaycan muğam irsində "Rast", "Şur", "Segah", "Çahargah", "Bayatı-Şiraz", "Şüştər", "Hümayun" muğamları 7 əsas muğam və eyniadlı məqamlar Azərbaycan muğam-

məqam nəzəriyyəsinin əsasını təşkil edir. Bununla yanaşı, "Mahur-hindi", "Orta Mahur", "Dügah", "Bayatı-Qacar", "Şahnaz", "Rəhab", "Nəva", "Zabul Segah" və s. muğamlar da Azərbaycan musiqi irsinin zəngin sərvətləridir. Bu muğam adlarının digər xalqların oxşar tərkibli məqam - makam irsi ilə müqayisə olunması müəyyən müqayisələr aparmağa imkan verir. Bu baxımdan Özbək şaşmakomlarına nəzər salmaq olar.

Şaşmakom – bir silsilədə birləşmiş 6 makomdan ibarətdir. Makomlar haqqında, onların quruluşu haqqında qiymətli tarixi sənədlərə IX-XIX əsrlərə aid Şərq əlyazmalarına və xüsusilə musiqi risalələrinə əsaslanaraq demək olar ki, makomların müxtəlif şəkilləri olmuşdur, onların ən təkmilləşmiş forması olan "12 makom" silsiləsi ("Duvozdax makom") Şaşmakomun formalaşması üçün çox əhəmiyyətli rol oynamışdır. "On iki makom" silsiləsi XI-XVIII əsrlərdə ümumilikdə artıq qeyd etdiyimiz kimi, bütün Şərq xalqlarının, o cümlədən, Orta Asiya xalqlarının sənət abidəsi idi. Şaşmakom isə Buxarada təxminən XVIII əsrdə yaranmışdır.

XIV-XV əsrlərdə, Orta Asiya xalqlarının mədəniyyəti tarixində ədəbiyyatın və incəsənətin çiçəklənməsi dövründə həm musiqi ifaçıları, həm də musiqi əsərlərinin müəllifləri olan bastakorlar şöhrət qazanmışlar. XIV-XV əsr bastakorlarının yüksək ustalıqları haqqında qədim risalələr və musiqi traktatlarında məlumat vardır.

Həmin əsrlərdə yaşayıb-yaratmış bastakorlar haqqında olan məlumatlar, musiqi pyeslərinin bəstələnməsində istifadə olunan vasitə və amillər – amal, savt, kor, peşrav, zarbayn, rixta və başqaları, bundan başqa miyonxon, mahnılarda aucların işlənməsi, instrumental giriş mustaxal və musiqinin başqa təzahürləri barədəki anlayışlar yalnız bastakorların yaradıcılığının işıqlandırılması baxımından deyil, eyni zamanda, makomat sisteminin, həmçinin, Şaşmakomun qanunauyğunluqlarının başa düşülməsi baxımından da qiymətli mənbədir.

Şaşmakomun iki xalqa - özbək və tacik xalqlarına aid olması tarixi məsələlərə də diqqət yetirilməsi vacibdir. Elmi ədəbiyyatda belə bir fikir geniş yayılmışdır ki, özbək-tacik şaşmakomları eynidir. Şaşmakomların ayrı-ayrılıqda özbək və tacik şaşmakomu kimi avropa not sistemində yazıya alınaraq çap edilməsi bu silsilə əsərlərin daha dərindən müqayisəli araşdırmalarına yol açır.

Mərkəzi Asiyada yaşayan özbəklər – türkdilli, taciklər isə - farsdilli xalqlardır. Nəzərə alsaq ki, şaşmakom sözlə, mətnlə sıx bağlı olan bir sənətdir, melodiyanın yaradılmasında sözlə musiqinin vəhdəti böyük rol oynayır, o zaman dil fərqlərinin əhəmiyyətli rolundan danışmağa dəyər. Buradan da artıq ilkin fərqlərin üzə çıxmasını görə bilərik.

Özbək və tacik şaşmakomlarının quruluşunda da müəyyən fərqlər vardır ki, bu da xüsusi diqqət tələb edən məsələlərdəndir. Silsilə əsər olan Şaşmakom altı iri həcmli müstəqil əsərdən – "Buzruk", "Rost", "Navo", "Duqox", "Seqox", "İrok" makomlarından ibarətdir. Hər makom iri həcmli instrumental və vokal bölmələrdən ibarətdir. Bu bölmələrə müxtəlif janrlı pyeslər daxildir.

Əgər nəzərə alsaq ki, şaşmakom digər Şərq xalqlarının musiqisində olduğu kimi, musiqi biliklərinə yiyələnmiş professional ifaçıların ustad-şagird zəminində mənimsəyərək, yaratdıqları musiqi əsərləridir, o zaman ortaq ənənələrin mövcudluğunu qeyd edə bilərik. Şaşmakomların Özbəkistan ərazisindəki Buxara və Xarəzm bölgələrilə bağlı ənənələri də qeyd olunmalıdır.

Bütün bunlar özbək şaşmakomlarının ortaq və oxşar ənənələrindən danışmağa imkan verir. Ümumilikdə isə Azərbaycan muğamları ilə özbək şaşmakomları arasında müqayisələrin aparılmasına yol açır. Bu baxımdan terminologiyanın, janr, quruluş-kompozisiya xüsusiyyətlərinin oxşarlığını, ifaçılıq ənənələrinin ümumiliyini qeyd edə bilərik.

Azərbaycan və özbək muğamları arasında termin oxşarlığından danışarkən, bir sıra

nümunələr gətirə bilərik. Məsələn, Azərbaycanda “Rast” deyildiyi halda, özbəklər – “Rost” deyirlər, o cümlədən, “Əraq” – “İrok”, “Nəva” – “Navo”, “Büzürk” – “Buzruk”, “Bayatı” – “Bayot”, “Bayatı-Şiraz” – “Bayote-Şiroziy” və s. adlanır. Bundan başqa, “Buzruk” makomunda “Nasri Uzzol” şöbəsi, “Bayatı-Şiraz” muğamının “Üzzal” şöbəsinin adına uyğundur. “Hüseyni”, “Nəva”, “Çahargah”, “Novruzi-xara”, “Əcəm”, “Novruzi-Əcəm”, “Ərak”, “Rak” və bu kimi başqa şöbələr xaraktercə müxtəlif olsalar da Azərbaycan və özbək şifahi ənənəli professional musiqisində təsadüf olunur.

Maraqlıdır ki, Azərbaycan və özbək muğam-makom sistemində bir sıra musiqi terminlərinin ümumi olmasına baxmayaraq, onların daşıdığı funksiyalar müxtəlifdir. Məsələn, özbək makomlarının “Muşkilot” instrumental şöbəsinin hissələrindən biri təsnif adlanır, bu, geniş inkişaflı instrumental epizoddur. Azərbaycan muğamlarında təsnif – şöbələr arasında ifa olunan vokal-instrumental əsərdir, məqam əsasına və melodik xüsusiyyətlərinə görə muğam şöbəsi ilə bağlı olub, onun adını daşıyır.

Bundan başqa, özbək makomlarında “Muşkilot” şöbəsinə daxil olan hissələrdən biri “Müxəmməs” adlanır ki, Azərbaycan musiqisində bu ada aşıq yaradıcılığında poetik forma adı ilə bağlı olan aşıq havalarından biri kimi rast gəlinir.

Özbək makomlarından biri olan “İrok” müstəqil mahiyyət daşımasına baxmayaraq, Azərbaycanda “Rast” muğamının əsas şöbələrindən birinə çevrilmişdir. Əksinə, özbək musiqisində “Bayote-Şiroziy” şöbə olduğu halda, Azərbaycanda “Bayatı-Şiraz” müstəqil muğamlardan biridir.

## SONUÇ

Beləliklə, göstərdiyimiz nümunələr Azərbaycan və Özbək muğam – makom sistemində özünü göstərən ümumi və fərqli cəhətlərin çox az bir hissəsi olsa da, yeni tədqiqatlara istiqamət verir. Azərbaycan muğamlarının və Özbək şaşmakomunun müqayisəli təhlili onların arasındakı oxşar və fərqli cəhətlərin üzə çıxarılması baxımından vacibdir və mühüm əhəmiyyətə malikdir.

## KAYNAKLAR

1.Hacıbəyli Ü. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, 2010. http://musbook.musigi-dunya.az/az/history_inf.html

2. Джумаев А. Отражение взаимосвязей профессиональной музыки устной традиции Ближнего и Среднего Востока в средневековых письменных источниках. // Традиции музыкальных культур народов Ближнего, Среднего Востока и современность. М., Сов.композитор, 1987. с.164-168.

3. Вызго Т. К вопросу об изучении макомов. // История и современность. Проблемы музыкальной культуры народов Узбекистана, Туркмении и Таджикистана. М., Музыка, 1972. с.387-413.

4. Сайгун А. Основные принципы выразительности в музыке Среднего Востока. // Музыка народов Азии и Африки. II выпуск. М., Сов.композитор, 1973. с.326-331.

5. Zöhrabov R. Muğam. Bakı, 1991. 219 s.